# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

(Əvvəli 7-ci səhifədə).

Digər kənd təsərrüfatı sahələrinin inkişafına da diqqət yetirilir. Xüsusilə meyvəçiliyin, bağçılığın və üzümçülüyün genişləndirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Rayonda mövcud bağ sahələri 5603, üzüm plantasiyaları isə 508,5 hektardır. Hazırda yeni üzüm plantasiyalarının meyvə bağlarının salınması işi davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən 2015-ci il "Kənd Təsərrüfatı ili" elan edilmişdir. Sərəncamın icrası ilə əlaqədar rayonda kənd təsərrüfatının dinamik inkişafı üçün yeni emal müəssisələrinin, iri fermer təsərrüfatlarının yaradılması idarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sisteminin tətbiqi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

Rayonda çıxan "Qəbələ" qəzetinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin, ölkədə və rayonda sosial-iqtisadi sahədə əldə olunan nəticələrin işıqlandırılması, milli-mənəvi dəyərlərin təbliğ olunması və əhalinin informasiya təminatının zənginləşdirilməsi istiqamətində gördüyü işlər mühüm əhəmiyyət kəsb edir. Qəzet ayda 4 dəfə çıxmaqla öz səhifələrində rayonumuz üçün aktual olan mövzuları dərc edir. Maraqlı mövzuları çap edən bu dövrü mətbuat məcmuəsinə oxucu marağının sayı ildən-ilə artmış, 2015-ci ilin yanvar ayından 2300 nüsxə tirajla çıxmağa başlamışdır.

Eləcə də operativ informasiya bolluğu yaratmaq, onu kütləvi oxucu kontingentinə çatdırmaq məqsədi ilə rayon icra hakimiyyətinin internet saytı yaradılmışdır. Ahəngdar olaraq yenilənən sayt azərbaycan, ingilis və rus dillərində dünyanın bütün ölkələrinə yayımlanaraq beynəlxalq informasiya sektorunda Qəbələni təbliğ edir. Rayonun sosial, ictimai həyatında baş verən yeniliklər burada müntəzəm olaraq işıqlandırıldığına görə respublikanın mərkəzi mətbuat orqanları yeri gəldikcə burada toplanmış məlumatlara istinad edir, öz səhifələrində işıqlandırır.



**Qəbələ ictimaiyyətinin nümayəndələri ilə görüş.**

Rayonun ictimai-siyasi həyatının mühüm sahəsi olan tolerantlıq, dini durum və dini ayinlərin icrası da nəzarətdə saxlanılır. Mövcud 46 məsciddən aktiv fəaliyyət göstərən 33-də 22 dövlət qeydiyyatından keçmiş dini icma yaradılmışdır. Nic qəsəbəsində fəaliyyət göstərən xristian provaslav kilsəsində isə dövlət qeydiyyatından keçmiş udi xristian dini icması təşkil olunmuşdur. İcmalar "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq dini ayinlərin icrasını tənzimləyir.

Rayonumuzda yaşayan etnik xalqlar öz adət-ənənələrinin, milli mədəniyyətlərinin, dillərinin qorunması, inkişaf etdirilməsi istiqamətində fəal mövqe nümayiş etdirir, biri-digərinə bərabər hüquqlu vətəndaş kimi qarşılıqlı hörmət münasibəti bəsləyir. Həyata keçirilən abadlıq-quruculuq işləri milli azlıqların yaşadığı qəsəbə və kəndləri də əhatə edir, onların bu işlərdən bəhrələnməsini təmin edir.

2014-cü il ərzində rayonda hüquq mühafizə orqanları tərəfindən qanunçuluq, cinayətkarlığa qarşı mübarizə, insan azadlıqlarının və hüquqlarının qorunması, əhalinin hüquqi maarifləndirilməsi sahəsində də xeyli işlər görülmüşdür. Rayon polis şöbəsi tərəfindən bütün subyektlər üzrə 92 cinayət hadisəsi qeydə alınmış, hadisələrin 94 faizinin açılması təmin edilmişdir. Eləcə də il ərzində şəxsiyyət əleyhinə 33 cinayət hadisəsi, ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə 42 cinayət hadisəsi baş vermiş və hadisələrin hamısı açılmışdır. Lakin mülkiyyət əleyhinə qeydə alınmış 13 cinayət hadisəsindən 4 hadisə bağlı qalmışdır. Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, 2014-cü ildə qeydə alınmış 92 cinayət hadisəsi 5 halda əvvəllər cinayət törətmiş şəxslər, 5 halda isə qadınlar tərəfindən törədilmişdir. 6 cinayət hadisəsi sərxoş vəziyyətdə, 1 cinayət hadisəsi odlu silahla, 1 cinayət hadisəsi yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmişdir. Məhkəmə orqanlarından gizlənən və axtarışda olan 25 nəfərdən 20 nəfəri saxlanılaraq istintaqa cəlb edilmişdir.

İl ərzində 16 yol-nəqliyyat hadisəsi baş vermişdir. Nəticədə 5 nəfər həyatını itirmiş, 18 nəfər xəsarət almışdır.

Narkomanlığa qarşı aparılan mübarizə tədbirləri nəticəsində polis şöbəsinin əməkdaşları tərəfindən 5 fakt aşkar edilərək cinayət işinə başlanılmışdır.

Ümumtəhsil məktəblərində "Ağ ölümə yox deyək", "Uşaqların ağır, zərərli əməkdən müdafiə edilməsi", "Piyadaların küçə və yollarda davranma qaydaları" mövzularında mühazirələr oxunmuşdur.

2014-cü il ərzində 13.322 nəfərə şəxsiyyət vəsiqəsi verilmişdir. Həmin şəxslərin 4.154 nəfəri 16 yaşınadək olan vətəndaşlardır.

**Hörmətli toplantı iştirakçıları!**

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı aparatına 2014-cü ildə ümumilikdə 864 ədəd vətəndaş müraciəti daxil olmuşdur. O, cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 331, Milli Məclisdən 9, Nazirlər Kabinetindən 10, respublikanın digər təşkilatlarından 79, vətəndaşlardan isə rayon icra hakimiyyəti başçısının ünvanına 435 ədəd müraciət daxil olmuşdur.

Daxil olmuş müraciətlərin 686-ı ərizə, 177-i şikayət, 1-i isə təklif xatakterli olmuşdur. Müraciətlərin hər biri qanunvericilik aktlarına uyğun olaraq araşdırılaraq onlara müvafiq cavab verilmişdir. Həmin müraciətlərin 386-sı müsbət, 147-i qismən həll edilmiş, 224-nə müvafiq izahat verilmiş, 7-si əsassız sayılmış, 16-sı tabeli qurumlara, 38-i isə aidiyyəti orqanlara göndərilmişdir.

2014-cü ildə əsasən ərizələr fərdi yaşayış evlərinin tikintisinə dair icazələrin verilməsi, yolların təmiri, təbii qaz təchizatının yaxşılaşdırılması, maddi yardım və ünvanlı dövlət sosial yardımlarının verilməsi, tikinti materialları, torpaq və mənzillə təmin olunmaq barəsində olmuşdur.

Əvvəlki illərdə olduğu kimi 2014-cü ildə də rayon icra hakimiyyətində informasiya texnologiyalarından geniş istifadə olunmuş, sənədlərin elektron dövriyyəsi sistemi yaradılmışdır. Rayon icra hakimiyyətinin elektron poçt ünvanına daxil olmuş məktublar dərhal araşdırılaraq müvafiq tədbirlər görülmüşdür. Bununla yanaşı elektron poçt ünvanında qaynar xətt əlaqə nömrəsi və operativ idarəetmə mərkəzi də fəaliyyət göstərir. İl ərzində elektron poçt ünvanına daxil olan məktublarda şikayət hallarına rast gəlinməmişdir.

2014-cü ildə vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Rayon icra hakimiyyəti başçısı aparatında müntəzəm olaraq həftənin beşinci günü başçı, digər iş günlərində isə müavin və şöbə müdirləri tərəfindən vətəndaşlar qəbul edilmişdir. Aparılmış qəbul zamanı rayon icra hakimiyyətinə 1697 nəfər vətəndaş müraciət etmişdir ki, bunların da 826-ı RİH başçı tərəfindən qəbul olunmuşdur. Qəbulların nəticəsi olaraq vətəndaşların müraciəti ilə bağlı cavabdeh şəxslərdən rəsmi məlumatlar alınmışdır.

2014-cü ildə RİH-nin iş planına uyğun olaraq keçirilən 25 şura yığıncağında 30-dan artıq məsələ müzakirə edilmişdir.

Hesabat dövründə rayon icra hakimiyyəti başçısının 40 səyyar görüş-qəbulu keçirilmişdir. Səyyar görüş-qəbullarda 5314 nəfər iştirak etmiş, onlardan 338 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

Təkliflərin və edilən müraciətlərin 308-i müsbət həll edilmiş, 14-ü ilə bağlı mövcud qanunvericilik izah edilmiş, 16 təkliflərin həlli isə respublikanın aidiyyəti təşkilatları tərəfindən icra edilməli olduğuna görə həmin müraciətlərlə bağlı müvafiq təşkilatlar qarşısında məsələ qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikilməsi, subartezian quyularının qazılması və çaylarda sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

(Ardı 9-cu səhifədə).